**Ramiz Cavad oğlu Cavadov**
**Yusif Xasay oğlu Yusifov**
**UOT:339.9; JEL:A10; C99.**

# Postpandemiya dövründə dayanıqlı inkişafın təmin edilməsinə qlobal rəqabət qabiliyyəti mühitində yeni baxış

***Xülasə***

*Nəzəri yanaşmalara görə qlobal rəqabət qabiliyyətinin əsas amilləri aşağıdakılar hesab edilir: yüksək səviyyədə milli insan kapitalı; texnoloji modernləşmə və rəqəmsallaşma; iqtisadi artımın keyfiyyəti. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatına yaxından inteqrasiya olunmalıdır ki, bu amil də aşağıdakı təhdidlər fonunda xarici təsirlərdən qorunmağı şərtləndirir: iqtisadi artım sürətində azalma; "orta gəlir" tələsi; rəqabət qabiliyyətinin zəifləməsi; texnoloji geriləmədə artım; həyat keyfiyyətinin aşağı düşməsi. Hazırkı şəraitdə ölkə iqtisadçılarını "dayanıqlı iqtisadi artım harada baş verəcək" sualı daha çox düşündürür. Fikrimizcə bu suala cavab tapmaq üçün üç əsas drayverə diqqət yetirilməlidir. Birincisi - texnoloji iqtisadiyyat. Birinci drayverin sayəsində iqtisadi baxımdan inkişaf dərininə artırılacaqdır. İkinci drayver ixracat yönümlü iqtisadiyyatdır. İkinci drayver sayəsində iqtisadiyyat eninə böyüyəcəkdir. Üçüncü drayver isə yeni iqtisadiyyatdır. Üçüncü drayver sayəsində yuxarıya doğru böyümə müşahidə olunacaqdır.*

***Açar sözlər:*** *qlobal rəqabət, sosial-iqtisadi inkişaf, insan kapitalı, iqtisadi rifah.*

## Giriş

İstər beynəlxalq, istərsə də milli səviyyədə ekspertlər tərəfindən COVİD-19 pandemiyası və onun iqtisadiyyata təsiri vaxtında və dəqiq proqnozlaşdırıla bilinmədiyi üçün qeyri-müəyyənlik şəraitində çevik qərarların qəbulu da mükəmməl sübutlara söykənə bilməzdi. Verilən qərarlar əsasən şok təsirlərin yumşaldılmasına, sosial yükün dövlətin üzərinə ötürülməsinə və mümkün olduğu qədər bu yükün sahibkarlarla bölüşülməsinə, biz sözlə "daha az itki" ssenarisi ilə müşahidə olunmuşdur. Pandemiyanın yaratdığı şəraitlə artıq "barışmış" və nisbi artım üçün müəyyən təkan əldə etmiş dövlət, biznes və vətəndaş cəmiyyəti inkişaf, xüsusilə qlobal rəqabət mühitində dayanıqlı inkişaf naminə yeni çağırışlarla üz-üzədir. Müşahidələr onu deməyə əsas verir ki, cəmiyyət müasir sosial-iqtisadi şəraitdə daha çox orta müddətli perspektivdə qlobal artımın daha az templərlə müşahidə olunacağını, qısamüddətli dövrdə baş verəcək artımın isə 2020-ci illə müqayisədə əldə edildiyini qəbul edir. Bir sözlə, qlobal iqtisadiyyatın "böyük depressiya"dan sonra daha aşağı templərlə, əksər ölkələrin dövlət borcunun əhəmiyyətli artması ilə müşayiət olunmaqla, bərpa dövrü gözlənilir. Məlum olduğu kimi, iqtisadiyyatda hələ də dominantlığa malik qlobal neft bazarı pandemiyadan əhəmiyyətli dərəcədə zərər çəkmişdir. Əksər sahələrdə tətbiq edilən məhdudiyyətlər qlobal tələbin azalmasına səbəb olduğu üçün onun bərpa olunması və neft bazarının canlanması perspektivləri yenidən nəzərdən keçirilir. Beynəlxalq Enerji Agentliyinin proqnozlarına görə, neft bazarında bərpa prosesi 2023-cü ildən başlayacaq və yalnız 2030-cu ildə pandemiyadan əvvəlki tələbatın müşahidə olunmuş səviyyəsinə çatacaqdır. Bu dəyişikliyə həm əhalinin nəqliyyat və turizm xidmətlərinə olan tələbinin azalması, həm də enerji sənayesinin transformasiyası təsir edəcəkdir. Pandemiyanın təzyiqləri fonunda iqtisadiyyatın müxtəlif sahələrində məhsuldarlığın azalması uzunmüddətli layihələr üzrə investisiyaları da riskə məruz qoymuşdur. Yaranan boşluq və təlatümlər fonunda neft ixrac edən ölkələr məzənnə və maliyyə təzyiqləri ilə qarşılaşacaqlar. Paralelliq



©Ramiz Cavad oğlu Cavadov i.f.d., dos., E-mail:ramizjavad@gmail.com, Yusif Xasay oğlu Yusifov i.f.d., dos.,
Azərbaycan Dövlət İqtisad Universiteti, E-mail:yusif.yusifov@stat.gov.az
© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

aparsaq, digər xammalların da qiymət dinamikası neftin qiymətinə bənzəyəcəkdir. 2024-2025-ci ilə qədər alüminium və misin böhrandan əvvəlki qiymətlərinin, sink və dəmir filizi qiymətlərinin isə yalnız müəyyən olunmuş müddətdən sonra bərpa ediləcəyi gözlənilir. Riskdən sığortalanmaq təfəkkürü ilə qiymətli metalların qiymətləri daha müsbət dinamikaya malik olacaqdır.

**Qlobal rəqabət qabiliyyəti mühitində dayanıqlı inkişafın təmin edilməsinin əsas istiqamətləri**

COVİD-19 dünya ticarətinin yeni bir düzəninin formalaşmasını gündəmə gətirmişdir. Məcburi müvəqqəti qapanmalar qloballaşmaya xələl gətirmiş, təcridetmə və proteksionizm istiqamətində meyillərə dəstək vermişdir. Bir sözlə qlobal əlavə dəyər həlqəsinin təbiəti dəyişmişdir. Həlqələr qısalmışdır. Bu baxımdan istehsal prosesinin yaxın ətraf ərazilərə geri qaytarılması və iş proseslərinin autsorsinqinin (xarici qaynaqlanması) sürətlənməsi daxili təchizat zəncirlərinin gücləndirilməsi yolu ilə daha çox şaxələnmə hesabına baş verəcəkdir. Pandemiya mühiti dünya nəqliyyat bazarının strukturunda da əhəmiyyətli dəyişikliklər etməkdədir. Hava nəqliyyatı son dərəcə yavaş bir templə bərpa olunma ehtimalı ilə hələ də iflas mövqeyində qalır. Dəniz və avtomobil nəqliyyatında müəyyən çətiliklər yaransa da, bu dönəmdə dəmir yolu marşrutları özlərini ən dayanıqlı və səmərəli tərəfdən göstərə bilmişdir. Avropa ilə Çin arasında yük dövriyyəsi artmış, lokalizasiyaya meyillilik inkişaf etməkdə olan bazarlardan daha da böyük kapital axınlarına səbəb kimi qiymətləndirilir. Yuxarıda deyilənlərə əsaslanaraq, yaranmış vəziyyətin investisiya rejimlərinin sərtləşdirilməsinə, eyni zamanda xarici birbaşa investisiyalara çıxış və texnologiya transferi üçün qlobal rəqabətin əhəmiyyətli dərəcədə artmasına səbəb olacağını ehtimal etmək mümkündür. Nəticədə "ticarət müharibələri" kənarda qalan kiçik ölkələrə daha az təsir göstərməklə birbaşa xarici investisiyaların azalmasına öz təsirini göstərmişdir. İnkişaf etmiş ən qabaqcıl ölkələrin sırasında (ən azından birinci 50 ölkə sırasında) yer almaq üçün gələcək dövrdəki davranışımız çətin xarici şərtlərdə baş verəcəkdir. Çünki səbəb və nəticələri daha yaxşı bəlli olan 2007-2009-cu illərdəki qlobal maliyyə böhranı da dünya iqtisadiyyatı və geosiyasətində sürətli və təhlükəli dəyişikliklərin başlanğıc nöqtəsi oldu. Dünyanın çoxqütblü bir modelə keçidi münaqişələr və böhranlar, iqtisadi, texnoloji və geosiyasi rəqabətlə müşayiət olundu. Nəzəri yanaşmalara görə qlobal rəqabət qabiliyyətinin əsas amilləri aşağıdakılar hesab edilir: yüksək səviyyədə milli insan kapitalı; texnoloji modernləşmə və rəqəmsallaşma; iqtisadi artımın keyfiyyəti.

Dünyanın inkişaf etmiş iqtisadiyyatında həm əvvəl, həm də pandemiya dövründə görünməmiş yenilik dalğası Azərbaycanda baş verən əsaslı dəyişikliklərə sürətli reaksiya göstərilməsini tələb edir. Sənaye - 4.0 yeni texnoloji qaydaya keçildiyi bir şəraitdə iqtisadi geriləmənin qəbulu yolverilməzdir. Qlobal iqtisadiyyatdakı dinamik dəyişiklikləri nəzərə alaraq, 2030-cu ilə qədər olan dövr ölkəmiz üçün strateji bir zaman kimi xarakterizə olunur. Dünyaya açıq bir ölkə olan Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatına yaxından inteqrasiya olunmalıdır ki, bu amil də aşağıdakı təhdidlər fonunda xarici təsirlərdən qorunmağı şərtləndirir.

- iqtisadi artım sürətində azalma. Artan proteksionizm və sanksiya müharibələri praktikasının genişlənməsi fonunda dünya ticarətinin həcmində nəzərəçarpan azalma müşahidə olunur. "Yeni reallıq" qlobal tələbin azalmasına və inkişaf etməkdə olan ölkələrin artım tempinin ləngiməsinə səbəb olmuşdur. Belə bir xarici mühit şəraitdə Azərbaycan iqtisadi böyümənin ildə 2-3% səviyyəsində, yəni inkişaf etməkdə olan iqtisadiyyatlar üçün dünya ortalamasının altında olması və 50 inkişaf etmiş ölkənin sırasına daxil olma şansını itirməsi ilə təhdid olunur;
- "orta gəlir" tələsi. Əsas makroiqtisadi göstəricilərə görə Azərbaycan orta iqtisadi inkişaf səviyyəsinə çatmışdır. Müqayisə olunan ölkələrin təcrübəsi göstərir ki, orta səviyyədə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ləngimə riski var. Yeni iqtisadi artım modelinə keçid Azərbaycanı orta gəlirli ölkələr səviyyəsində uzunmüddətli durğunluq və qonşu ölkələrə müqayisədə rəqabətçi mövqelərinin itirilməsi təhlükəsindən qoruyacaqdır;

- rəqabət qabiliyyətinin zəifləməsi. İdxal olunan texnologiyalardan, komponentlərdən və mütəxəssislərdən asılılığın artması səbəbindən rəqabət qabiliyyətinin itirilməsi təhdid kimi qalmaqdadır. Dövlət sektorunun milli iqtisadiyyatda üstünlük təşkil etməsi xarici və daxili bazarlarda iqtisadi subyektlər arasında məhdud rəqabətə səbəb ola və müəssisələrin ümumi qlobal rəqabət qabiliyyətini azalması ilə nəticələnə bilər;
- texnoloji geriləmədə artım. Dünyanın qabaqcıl ölkələrində texnologiyanın sürətlə inkişaf etməsi milli insan kapitalının keyfiyyətinə prinsipial olaraq yeni tələblər qoyur. İnsanların yeni vərdiş və bacarıqlarının inkişafı ölkəmiz üçün prioritet vəzifədir. Azərbaycanın kadr hazırlığı, elmi və tətbiqi tədqiqatlar, yeni başlayanlar üçün dəstək, qabaqcıl texnologiyaların ötürülməsi və s. daxil olmaqla yenilikçi bir iqtisadiyyata güclü təkan verəcək növbəti islahatları şərtləndirir;
- həyat keyfiyyətinin aşağı düşməsi. İqtisadi geriləmə və rəqabət qabiliyyətinin zəifləməsi vətəndaşların rifahına mənfi təsir göstərir. Gec-tez "resursların istehlakı"nın təsiri keçmişin mirasının (sosial və fiziki infrastruktur, ətraf mühit potensialı və s. kimi) faydalarının itirilməsi nəticəsində baş verir. Bu baxımdan digər oxşar iqtisadiyyatlı ölkələrin təcrübəsini nəzərə alaraq, "texnoloji yoxsulluq tələ"sinə düşmə riski nəzərə alınmalıdır.

Beləliklə, yeni reallıq ölkəmiz üçün həm təhdidlər mühitində əhəmiyyətli risklər yaradır və həm də yeni imkanlar açır. Azərbaycanın potensialı, ölkəyə ən əlverişli şərtlərlə yeni, hələ də inkişaf etməkdə olan dünya əmək bölgüsünə aktiv şəkildə inteqrasiya etməyə imkan verir. İngiltərə, Almaniya və Amerika Birləşmiş Ştatlarının xeyli inkişaf etdiyi 17-19-cu əsrlərdəki sənaye inqilabı zamanı və "buxar mühərriki sənayesini" mənimsəməyən ölkələrin özlərini bütün bir dövr üçün kənar gördükləri zaman bu belə olmuşdur. Bu gün Azərbaycan yeni genişmiqyaslı dəyişikliklərin astanasındadır. İqtisadiyyatın köklü şəkildə dəyişdirilməsi və uyğunlaşması üçün bəlli 5-10 il zaman kəsiyi üçün aparılan islahatların hazırkı dayaq nöqtəsini və çağırışlarını Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" müəyyən edir. Milli prioritetlərdən biri də dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatdın qurulmasıdır ki, o, özündə davamlı və yüksək iqtisadi artım, daxili və xarici təsirlərə dayanıqlıq kimi məqsədləri birləşdirir. Davamlı və yüksək iqtisadi artım konteksti üçün əsas hədəf iqtisadi artımın davamlı olması, milli iqtisadiyyatın dərin şaxələnməsi, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün yeni "hərəkətverici qüvvələr"in tapılmasıdır. Bununla yanaşı, qeyri-neft sektorunun maliyyələşməsində özəl sektorun payının artırılması, ölkə iqtisadiyyatına birbaşa xarici investisiyaların, o cümlədən infrastruktur sahələrinə strateji investorların cəlb olunması, kölgə iqtisadiyyatı minimuma endirilməsi əsas hədəfdir. Daxili və xarici təsirlərə dayanıqlıq isə təhdidlərin qarşısının alınmasına yönəldilmişdir. Bu məqsədlə xarici dövlət borcunun dayanıqlı səviyyəsinin qorunması, qiymətlərin aşağı və stabil olmasının təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir.

**Dünyanın qabaqcıl ölkələrinin sürətli inkişafın sənaye mərhələsindən yenilikçi mərhələyə doğru irəliləməklə "zamanı qabaqlama və yeni iqtisadi artım modeli"nə keçidi**

Bu keçid baza sahələrində yeni texnologiyaların kütləvi tətbiqi və gələcək texnoloji sifariş olan sənaye-4.0-ün prinsipial yeni sahələrinin yaradılması ilə müşayiət olunur. Çünki dünyadakı yeniliyin miqyası görünməmiş geniş həcmli həddə çatmışdır. Eyni zamanda, mineral xammal ehtiyatları ölkələrin həlledici rəqabət üstünlüyü və müvəffəqiyyətinə zəmanət olma kimi mövqelərini itirməkdədir. Hazırki şəraitdə ölkənin uğuru ən qabaqcıl təcrübə və texnologiyalara yiyələnmək bacarığı ilə müəyyən edilir. İnnovasiyanın artması ilə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

inkişaf etmiş ölkələrdə iqtisadi artım modeli dəyişir. Bu gün rəqabətqabiliyyəti yarışında uduzmamaq üçün mövcud daxili potensiala güvənən Azərbaycan milli iqtisadiyyatı yeni bir iqtisadi artım modelini sürətlə mənimsəmə yolundadır. Bu kontekstdə yeni iqtisadi modelə keçid mövcud dövlət siyasətində əsaslı dəyişiklikləri tələb edəcəkdir:

- məhsuldarlıq və keyfiyyətə daha çox yer ayırmaq: məhsuldarlığı artırmaq, əmtəələrin və xidmətlərin şaxələndirilməsi və keyfiyyəti əsasında istehsalın artırılması;
- insanların, müəssisələrin və sənaye sahələrinin texnoloji fokusu: həyatın bütün mərhələlərində yaradıcılıq, idrak bacarıqlarının inkişafı, texnologiyanın geniş yayılması və universal rəqəmsallaşma;
- rəqabət artımın stimulu kimi: ixracatı təşviq etmək, texnoloji şirkətləri lokalizasiya etmək, istedadları cəlb etmək və iqtisadiyyatın ayrı-ayrı sahələrini monopoliyadan çıxarmaqla rəqabəti mükafatlandırmaq;
- özəl sektorun üstün rolu: maneələrin aradan qaldırılması, investisiyaların stimullaşdırılması, tətbiqetmə üçün məsuliyyətin bölüşdürülməsi;
- bölgələrin aktiv mövqeyi və balanslı regional inkişaf: iqtisadi müstəqillik, məsuliyyət, bölgələr arasında rəqabət və əməkdaşlıq;
- işğaldan azad edilmiş ərazilərin iqtisadi dövriyyəyə reinteqrasiyasının təmin edilməsi və bu regionda müasir innovativ texnologiyalara əsaslanan yüksək keyfiyyətli məhsul və xidmətlərin istehsalına nail olmaq.

Bu dəyişikliklər kəsişən bir ideologiya ortaya qoyur ki, bunlar da yuxarıda qeyd olunan sistem islahatlarının, prioritetlərinin və hədəflərinin əsasını təşkil edir. Bu gün ölkə iqtisadçılarını "dayanıqlı iqtisadi artım harada baş verəcək" sualı daha çox düşündürür. Fikrimizcə bu suala cavab tapmaq üçün üç əsas drayverə diqqət yetirilməlidir. Birincisi - texnoloji iqtisadiyyat. Bu, əsas sahələrin texnoloji yenilənməsi və rəqəmsallaşdırılması və dünya bazarlarındakı mövqelərinin gücləndirilməsidir. Bura aqrar-sənaye, mədən-metallurgiya və yanacaq-enerji kompleksləri daxildir. Əsas sənaye sahələrimizdən imtina mümkün və məqsədəmüvafiq deyil və onlar hələ də iqtisadiyyatın əsas sütununu təşkil edir. Bu sektor orta müddət ərzində digər sahələrin hərəkətverici qüvvəsi olmaqda davam edəcəkdir. Bunların inkişafı üçün əməliyyat səmərəliliyinin artırılması, emal dərinliyinin maksimuma çatdırılması və qlobal tədarük zəncirlərinə daxil edilməsi kimi meyarlar əsasdır. Birinci drayverin sayəsində iqtisadi baxımdan inkişaf dərininə artırılacaqdır. İkinci drayver ixracat yönümlü iqtisadiyyatdır. Bu, yeni Azərbaycan məhsullarının (o cümlədən işğaldan azad edilmiş ərazilərdə yaradılacaq təsərrüfat subyektlərində) xarici bazarlara çıxarılmasına yönəldilmiş istehsal sənayesinin daha da sənayeləşməsidir. Bu baxımdan yüksək texnoloji məhsullar istehsal edə bilən layihələrin həyata keçirilməsinə diqqət yetirilməlidir. Bu "ağırlıq mərkəzləri" kritik sənaye sahibkarlığı kütləsini meydana gətirəcəkdir. Əsas məsələ sənaye-4.0 texnologiyalarının tətbiqi olacaqdır. İkinci drayver sayəsində iqtisadiyyat eninə böyüyəcəkdir. Üçüncü drayver isə yeni iqtisadiyyatdır. Bu, yeni sahələrin formalaşması və xidmət sektorunun inkişafıdır. Rəqəmsallaşma və texnoloji inqilab iqtisadiyyatın ənənəvi sahələr və onun ətrafında yeni sənaye sahələrinin yaranması üçün imkanlar yaradır. Həm məhsul istehsalında, həm də xidmət sektorunda yeni sənaye sahələri meydana gələcək. İxracat yönümlü və yüksək məhsuldar xidmətlər iqtisadiyyat üçün yeni "böyümə nöqtələri" olmalıdır. Bunlar məsələn, nəqliyyat və logistika, aerokosmik xidmətlər, mühəndislik, İKT, təhsil, tibbi turizmdir. Üçüncü drayver sayəsində yuxarıya doğru böyümə müşahidə olunacaqdır. Təcrübə göstərir ki, müasir dünyada əsas xammal yığılmış istehsal fondları, maliyyə kapitalı və hətta innovasiyalar deyil. Yenilikçi-innovativ bir iqtisadiyyatda inkişafın əsas mənbəyi insanlar, onların bacarıq, vərdiş və səriştəsidir. Bu baxımdan hazırda insan kapitalının daha yüksək səviyyədə olduğu ölkələr, biznes və investorlar üçün istənilən bacarıq səviyyəsində



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

mütəxəssis təklif edə biləcək ölkələr mübahisəsiz rəqabətçi üstünlüklər əldə edirlər. Nisbətən gənc əhalisi, yaxşı təməl təhsili, sabitliyi və gələcəyə can atması ilə Azərbaycan insan kapitalının inkişafı üçün güclü potensiala malikdir. Təsadüfi deyil ki, Azərbaycanda da müasir dövrün ehtiyaclarına cavab verən yeni təhsil sənayesinin inkişafı üçün ciddi bir təməl yaradılmaqdadır. İnsan kapitalının aparıcı rolu ilə yeni iqtisadi artım modelinə keçid qarşıdakı sistem islahatlarının əsasını təşkil edir. Ölkəmizdə artım trayektoriyasına nail olmaq, nikbinlik üçün əsaslar mövcuddur. Əhalinin, biznes nümayəndələrinin və dövlət sektorunun gözləntilərinə rəğmən, Azərbaycan insanların yüksələn yaşayış səviyyəsi və bacarıqlara, qabaqcıl texnologiyalara əsaslanan rəqabətli iqtisadiyyata sahib omaq üçün milli iqtisadiyyatın ildə orta hesabla ÜDM-in ən azı 4,5-5% -i səviyyəsində böyüməsi adekvatdır. Belə bir kurs Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının ən yeni şərtlərdə mütərəqqi bir davamıdır və alternativi yoxdur.

**Nəticə**

Müasir şəraitdə Azərbaycan inamla irəliləmək üçün kifayət qədər iqtisadi, intellektual və siyasi mənbələrə malikdir. Strateji plan Azərbaycanın milli uğurlarının möhkəm təməlinə söykənir. Bundan başqa, nikbinliyin əsasını Azərbaycanın müstəqilliyin son 25 ilində qazandığı aşağıdakı inkişaf sıçrayışı və tcrübələr təmin edir.

Strateji kursun səmərəliliyi. Ölkəmizdə son 17 ildə Ümumi Daxili Məhsul istehsalı 3,2 dəfə, o cümlədən qeyri neft-qaz sektoru üzrə Ümumi Daxili Məhsul istehsalı 2,9 dəfə, sənaye məhsulu istehsalı 2,6 dəfə, o cümlədən qeyri neft-qaz sənayesi üzrə 3,0 dəfə, əsas kapitala yönəldilmiş vəsaitlərin həcmi 2,9 dəfə, o cümlədən tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitlər 4,2 dəfə, yük daşınması 1,7 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi real ifadədə 14,5 dəfə, dövlət büdcəsinin gəlirləri 21,4 dəfə, xərcləri 21,4 dəfə, əhalinin nominal gəlirləri 9,7 dəfə, əhalinin banklardakı əmanətləri 32,5 dəfə, iqtisadiyyatın kreditləşdirilməsi 21,7 dəfə, orta aylıq nominal əməkhaqqı 9,1 dəfə, xarici ticarət dövriyyəsi 4,7 dəfə, o cümlədən idxal 4,1 dəfə, ixrac 5,3 dəfə, ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların ümumi həcmi 3,4 dəfə artmış, 2004-2019-cu illərdə Azərbaycana ümumilikdə 260,8 milyard ABŞ dolları həcmində investisiya qoyulmuşdur. Qeyd olunanlar strateji kursun səmərəliliyini xarakterizə edir.

Zərbəyə tab gətirmək bacarığı. Azərbaycanın anti-böhran siyasətlərində əhəmiyyətli təcrübəsi var. 1997-1998-ci illərdəki Asiya böhranı, 2007-2009-cu illərdəki qlobal maliyyə böhranı və 2014-cü ildə başlayan “yeni reallıq”, COVİD-19 pandemiyası Azərbaycanın inkişaf modelinin gücünü sınayan ciddi problemlərdir. Böhranlar dövründə Azərbaycan digər dövlətlərdən fərqli olaraq, müsbət artım trayektoriyasını qoruyaraq “zərbəyə tab gətirə biləcəyini” sübut etdi.

Yeni bir reallığa uyğunlaşma. 2021-ci ili Üçüncü Modernizasiyanın başlanğıc ili hesab etmək olar. Proqnoza əsasən 2021-ci ilin sonunda adambaşına düşən ÜDM AQP baxımından 16600 ABŞ dollarından çox olacaq ki, bu da MDB-də orta göstərici hesab oluna bilər. Azərbaycan iqtisadiyyatının "yeni reallığa" uyğunlaşması uğurla davam edir.

Vətən müharibəsində qazanılmış zəfər. 2020-ci il 27 sentyabr - 10 noyabr tarixləri arasında müzəffər Azərbaycan ordusu torpaqlarımızı işğaldan azad etmişdir. İşğaldan azad edilmiş ərazilərin 2025-ci ilədək bərpa edilməsi və iqtisadi dövriyyəyə reinteqrasiya edilməsi ölkənin sosial-iqtisadi inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərəcəkdir.

Əsas hədəf yalnız ÜDM-in artımı deyil, keyfiyyət irəliləyişinin parametrləridir. 21-ci əsrin inkişaf paradiqmasında yüksək iqtisadi artım templəri milli uğur üçün zəruri, lakin kifayət olmayan şərtdir. Mürəkkəb və sürətlə dəyişən dünyada ÜDM ölkədəki həyat keyfiyyətini, vətəndaşların həqiqi rifah səviyyəsini və milli iqtisadiyyatın bütün potensialını tam əks etdirmir. 2030-cü ilədək prioritetlərdə Azərbaycanda ÜDM artımının davamlı olaraq



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

yüksək templərinə nail olunması ilə yanaşı, keyfiyyətli bir sıçrayış hədəfi qarşıya qoyulur. Məlum olduğu kimi, ÜDM-in bir sıra əhəmiyyətli qüsurları var və o, iqtisadi fəaliyyətin uzunmüddətli xarakterini əks etdirmir. Təbii ehtiyatların tükənməsi daxil olmaqla, ətraf mühitə dəyən ziyan nəzərə alınmır, həyat keyfiyyətini əks etdirmir, həqiqi rifahı göstərmir, əhalinin gəlirlərə görə təbəqələşməsini nəzərə almır və s. Ənənəvi ÜDM yalnız iqtisadi rifah haqqında yanlış təsəvvür yaradır. Azərbaycanın yüksək inkişaf etmiş bir ölkə səviyyəsinə çatması üçün yeni bir həyat keyfiyyəti və yeni iqtisadi artım keyfiyyəti ən vacib vəzifələrdir.

## Ədəbiyyat


1. Cavadov R.C., Feyzullayev M.Ə. Qarabağ regionunun sosial-iqtisadi inkişaf strategiyası. Bakı, 2021.
2. https://cyberleninka.ru/article/n/mirovoy-finansovyy-krizis-i-azerbaydzhan.
3. https://azerbaijan.un.org/az/sdgs.
4. https://president.az/articles/50474.
5. https://www.azstat.org/portal/.


***Рамиз Джавад оглы Джавадов***
***Юсиф Хасай оглы Юсифов***

***Новый взгляд на обеспечение устойчивого развития в постпандемический период в условиях глобальной конкурентоспособности***



***Резюме***

*Согласно теоретическим подходам, основными факторами глобальной конкурентоспособности считаются: высокий уровень национального человеческого капитала; технологическая модернизация и оцифровка; качество экономического роста. Экономика Азербайджана должна быть тесно интегрирована в мировую экономику, что обуславливает защиту от внешних воздействий на фоне следующих угроз: снижение темпов экономического роста; ловушка "среднего дохода"; ослабление конкурентоспособности; рост технологической отсталости; снижение качества жизни. В нынешних условиях экономистов страны все больше волнует вопрос” где будет происходить устойчивый экономический рост". На наш взгляд, чтобы найти ответ на этот вопрос, следует обратить внимание на три основных драйвера. Первый-технологическая экономика. Благодаря первому двигателю будет увеличена глубина развития с экономической точки зрения. Второй драйвер-экспортно-ориентированная экономика. Благодаря второму драйверу экономика будет расти вширь. Третий драйвер-новая экономика. Благодаря третьему драйверу будет наблюдаться восходящий рост.*

***Ключевые слова**: глобальная конкуренция, социально-экономическое развитие, человеческий капитал, экономическое благосостояние.*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Ramiz Javad Javadov***
***Yusif Khasay Yusifov***

***A new view on ensuring sustainable development in the post-epidemic period in the global competitive environment***

***Summary***

*According to theoretical approaches, the main factors of global competitiveness are: high level of national human capital; technological modernization and digitalization; quality of economic growth. The Azerbaijani economy should be closely integrated into the world economy, which leads to protection from external influences against the background of the following threats: reduction in the rate of economic growth; "average income" trap; weakening of competitiveness; growth in technological backwardness; decline in quality of life. In the current situation, the country's economists are more concerned about the question "Where will sustainable economic growth occur". In our opinion, to find the answer to this question, attention should be paid to three main drivers. The first-technological economy. Thanks to the first driver, economic development will be increased. The second driver is an export-oriented economy. Thanks to the second driver, the economy will grow transverse. The third driver is a new economy. Thanks to the third driver, upward growth will be observed.*

***Keywords:*** *global competition, socio-economic development, human capital, economic well-being.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 10.12.2021.***
***Çapa qəbul olunub: 15.12.2021.***



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az